**Azərbaycan Texniki Universitetinin Dayanıqlı İnkişaf Siyasəti**

Azərbaycan Texniki Universitetinin (AzTU) 2021-2030-cu illər üçün İnkişaf Strategiyasının məqsədlərindən biri “21-ci əsrin qlobal tələblərinə cavab verən Dayanıqlı və İnkluziv Universitet qurmaq”dır. Bu məqsədi əsas götürən AzTU Dayanıqlı İnkişaf Siyasətini qəbul etmişdir. Bu Siyasət AzTU-da BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı işləri dəstəkləmək və təkmilləşdirməyi hədəfləyir. Dayanıqlı İnkişaf Siyasəti AzTU-nun Elmi şurası əsasında illik əsasda nəzərdən keçirilir və zəruri olduqda dəyişikliklər edilir.

**AzTU-nun Dayanıqlı İnkişaf Siyasətinin məqsədi**

AzTU dayanıqlı inkişafı prioritet olaraq qəbul edən aparıcı texniki universitet olmaq əzmindədir və tədris, tədqiqat və əməkdaşlıq vasitəsilə, eləcə də AzTU-nun ətraf mühitə təsirinin azaldılması və sosial məsuliyyətin təşviqi ilə dayanıqlı inkişafa töhfə verəcəkdir.

**Məqsədə nail olmaq üçün AzTU aşağıdakı vəzifələri öhdəsinə götürür:**

• İqtisadi, sosial və ekoloji sahələrdə dayanıqlılığı bütün strateji və əməli fəaliyyətlərinə daxil etmək;

• Tədris və tədqiqatda irqi, etnik və cinsi ayrı-seçkilik olmadan şəffaflıq, bərabərlik və qarşılıqlı hörmət prinsiplərinə daimi riayət olunması;

• AzTU-nun ekoloji təsirlərinin azaldılması üçün mütəmadi tədbirlər görmək;

• Bir mühəndis universiteti olmaqla BMT-nin dayanıqlı inkişaf məqsədlərinə töhfə olaraq davamlı şəkildə tədris və tədqiqat fəaliyyəti həyata keçirmək və bu fəaliyyətlər barədə mütəmadi olaraq ictimaiyyəti məlumatlandırmaq;

• İşçi heyəti və tələbələrinin AzTU daxilində və ondan kənarda dayanıqlı inkişaf prinsiplərinə töhfə verilməsi və onların təşviqinə həvəsləndirmək və onların fəaliyyətinə lazımi şərait yaratmaq.